UOT: 902/904

Səadət ƏLİYEVA
Avey Dövlət tarix-mədəniyyət qoruğunun direktoru,
pedaqogika üzrə fəlsəfə doktoru
mursaqulova@gmail.com
https://orcid.org/0000-0002-5370-3178

Musa MURSAQULİYEV
Keşikçidağ Dövlət tarix-mədəniyyət qoruğunun direktoru,
BDU-nun Qazax filialının müəllimi
mursaqulov@gmail.com
https://orcid.org/0000-0001-6521-4905

Şamil NƏCƏFOV
Azərbaycan Milli Elmlər Akademiyası,
Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi,
tarix üzrə fəlsəfə doktoru, dosent
shamil_necefov@mail.ru
https://orcid.org/0000-0001-8834-7188

AVEY DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞUNDA ARXEOTURİZM PERSPEKTİVLƏRİ

Xülasə: Qazax rayonunun arxeoloji, tarixi-memarlıq abidələrinin bir qismi Avey Dövlət tarix-mədəniyyət qoruğunun ərazisində yerləşir. Qoruq ərazisində qədim daş dövründən başlayaraq son orta əsrlərə qədər arxeoloji abidələrə rast gəlinir. Bunlar qədim və yeni daş dövrünə aid mağara və açıq düşərgələr, tunc dövrü kurqanları, antik-ilk orta əsrlərə aid Alban kilsəsi və erkən xristianlıq dövrünün mağara-məbədləri, şəhər yerinin qalıqları, su quyuları, yaşayış yerləri, yel dəyirmanının qalıqları, istehakam qalıqları və s.-dən ibarətdir. Bu abidələrin tədqiqində ilk cığır XX əsrin 40-60-ci illərində Damcılı və Daş Salahlı mağaralarında aparılmış pelolit-mezolit dövrü araşdırmaları olmuşdur. Son illərdə yapon alimləri ilə birlikdə Damcılıda aparılan tədqiqatlar yeni elmi nailiyyətlərin əldə edilməsinə imkan yaratmışdır. Avey qoruğu ərazisində son iki ildə tunc dövrü abidələrinin öyrənilməsi istiqamətində araşdırmalar aparılmaqdadır. Tədqiq edilmiş kurqan qəbirləri tunc dövründə ərazinin əhali məskunlaşması, dəfn adətlərindəki müxtəliflik, mədəniyyətlərin vəhdəti məsələlərinin araşdırılması baxımından sərhədsiz imkanlar açmışdır.

Arxeoloji abidələrlə zəngin olan qoruq ərazisində arxeoturizm üçün perspektivlər mövcuddur. Açıq dağ arxeoturizminin inkişaf etdirilməsi baxımından çox əlverişli məkanda qərarlaşan, baxımlı və əsrarəngiz təbii şəraiti və iqlimi olan bu ərazidə yerləşən arxeoloji abidələrin tədqiqinin ölkə iqtisadiyyatına tətbiqi sahəsində imkanlar əlverişlidir. Xüsusilə son illərdə qoruq ərazisinə gələn turist sayının çoxluğunu nəzərə alaraq bölgədə həm əlverişli coğrafi məkan, həm maraqlı və ekstremal gəzinti sahəsi, həm də arxeoloji abidələrin zəngin yerləşdiyi ərazi kimi Avey qoruğunun arxeoturizmə verəcəyi töhfələr mütləq nəzərə alınmalı və bu sahədə mükəmməl proqram işlənib hazırlanmalıdır.

Açar sözlər: Qazax, Avey, Göyəzən, Damcılı, Əskipara, arxeoturizm, mağaralar, alban məbədi, tunc dövrü, kurqanlar

Saadat ALIYEVA, Musa MURSAGULIYEV, Shamil NAJAFOV

PROSPECTS OF ARCHAEOTOURISM IN THE STATE HISTORICAL AND CULTURAL RESERVE AVEY

Abstract: Some of the archaeological, historical and architectural monuments of Gazakh district are located in the territory of the Avey State Historical and Cultural Reserve. Archaeological monuments from the Paleolithic period to the Late Middle Ages can be found in the reserve. These include caves and open camps of the Paleolithic and New Stone Ages (the Neolithic), Bronze Age kurgans, an Albanian church of the Antique-Early Middle Ages and cave temples of the Early Christian period, remains of the town site, water wells, settlements, remains of a windmill, remains of fortifications, etc. The first step in the study of these monuments was the Paleolithic-Mesolithic research conducted in the Damjili and Dash Salahli caves in the 40s-60s of the 20th century. In recent years, research conducted in Damjili together with Japanese scientists has created an opportunity to achieve new scientific achievements. In the last two years, research has been conducted in the area of the Avey reserve to investigate the monuments of the Bronze Age. The studied kurgan graves have opened up unlimited opportunities for studying the issues of population settlement of the area in the Bronze Age, diversity in burial customs, and unity of cultures.

The reserve, which is rich in archaeological monuments, has wide prospects for archaeology. The opportunities for applying the study of archaeological monuments located in this area, which is in a very favorable location for the development of open mountain archaeology, with well-groomed and mysterious natural conditions and climate, are favorable for the economy of the country. Especially considering the large number of tourists visiting the reserve in recent years, the contributions that the Avey reserve will make to archaeological tourism in the region, both as a favorable geographical location, as an interesting and extreme hiking area, and as an area rich in archaeological monuments, should be taken into account and an excellent program should be developed in this area.

Keywords: Gazakh, Avey, Goyazan, Damjili, Askipara, archaeotourism, caves, Albanian temple, Bronze Age, kurgans

Саадат АЛИЕВА, Муса МУРСАГУЛИЕВ, Шамиль НАДЖАФОВ

ПЕРСПЕКТИВЫ АРХЕОТУРИЗМА В ГОСУДАРСТВЕННОМ ИСТОРИКО-КУЛЬТУРНОМ ЗАПОВЕДНИКЕ АВЕЙ

Абстракт: Некоторых археологических, исторических и архитектурных памятников Газахского района расположена на территории Авейского государственного историко-культурного заповедника. На территории заповедника находятся археологические памятники от палеолита до позднего средневековья. К ним относятся пещеры и открытые стоянки палеолита и неолита, курганы бронзового века, албанская церковь античного-раннего средневековья и пещерные храмы раннехристианского периода, остатки городища, колодцы, поселения, остатки ветряной мельницы, остатки укреплений и т. д. Первым шагом в изучении этих памятников стали палеолито-мезолитические исследования, проведенные в пещерах Дамджылы и Даш-Салахлы в 40-60-х годах XX века. В последние годы исследования, проведенные в Дамджылы совместно с японскими учеными, создали возможность для достижения новых научных достижений. В последние два года на территории заповедника Авей проводятся исследования памятников бронзового века. Изученные курганные захоронения открывают неограниченные возможности для изучения вопросов заселения территории в эпоху бронзы, разнообразия погребальных обычаев и единства культур.

Многочисленный археологическими памятниками заповедник имеет широкие перспективы для археологии. Возможности применения изучения археологических памятников, расположенных в этой местности, которая находится в очень благоприятном

месте для развития открытой горной археотуризм, с ухоженными и загадочными природными условиями и климатом, благоприятны для экономики страны. Особенно учитывая большое количество туристов, посещающих заповедник в последние годы, следует учесть тот вклад, который заповедник Авей внесет в археологический туризм в регионе, и как выгодное географическое положение, и как интересная и экстремальная зона для пеших походов, и как район, богатый археологическими памятниками, и разработать прекрасную программу в этой области.

Ключевые слова: Газах, Авей, Гёязан, Дамджылы, Аскипара, археотуризм, пещеры, албанский храм, бронзовый век, курганы

Giriş. Son illərdə aparılan arxeoloji qazıntılar və bu qazıntıların yekununda yaradılan arxeoparklar hazırda dünya turizminin ayrılmaz tərkib hissəsidir. Arxeologiya və arxeoloji qazıntıların nəticələrinin birbaşa dövlət iqtisadiyyatına yönəldilməsi, arxeoturizmin tətbiqi çox gəlirli sahə olan turizmin durmadan inkişaf etdirilməsinə əsaslanır. Arxeoturizm sahəsi iqtisadi nəticələrə hesablanmış bir sahə olmaqla yanaşı mühüm strateji məqamları da özündə ehtiva edir. Aydındır ki, bu sahə ilə ciddi məşğul olan ölkələr maddi mədəniyyətini, tarixini, etnoqrafik adətlərini, milli mətbəxini və s.-ni ölkəyə gəlmiş turistlərə, eyni zamanda yerli turistlərə reklam və birbaşa təbliğ edir.

Bir çox qədim tarixi-arxeoloji və memarlıq abidələrinin izlərini özünə yaşadan dünya ölkələri bu tip abidələrin qorunması, arxeoloji qazıntı aparılan abidələrə birbaşa turistlərin gəlişinin təmin edilməsi və reklam bukletlərinə istirahət məkanları və müalicə-sanatoriya mərkəzləri ilə yanaşı tarixi-arxeoloji abidələrin şəkillərinin və ünvanlarının salınmasını həyata keçirir. Dünya təcrübəsində arxeoturizmin təşəkkülü və inkişaf etdirilərək müasir duruma gətirilməsi çoxilliklərin təcrübəsinə əsaslanır. Türkiyədə bu sahənin inkişafına hələ XX əsrin 50-60-cı illərindən başlanılmışdır. İndi isə bu sahə turizmin ayrılmaz tərkib hissəsi olaraq ölkə iqtisadiyyatına külli miqdarda gəlir gətirməkdədir. Hətta ölkənin illik büdcə hesabatlarında turizmdən gələn vəsaitin həcmi ayrıca hesablanır. Təbii ki, burada atxeoturizmin payı inanılmaz rəqəmlərlə ifadə olunur. İstanbul, İzmir, Efes, Manisa, Antaliya, Mersin, Muğla, Urfa, Qaziantep və s. onlarla şəhərlərində antik yunan və Roma şəhər qalıqları, orta əsr Səlcuqlu, Bizans və Osmanlı qəsrləri ilə yanaşı ölkənin qədim dövr abidələrini seyr etmək üçün on minlərlə turist hər il Türkiyəyə gəlir. Son illərdə Urfa yaxınlığında Göbəklitəpə abidəsinin ziyarətçilərinin sayında inanılmaz artım burada aparılmış irimiqyaslı arxeoloji qazıntılar zamanı üzə çıxarılmış möhtəşəm daş dövrü ibadətgahlarıdır.

Belə nümunələri İran, İraq, İordaniya, Misir, Yunanıstan, İtaliya, bütün Yaxın və Orta Şərq, Mərkəzi Avropa, Orta Asiya, Hind-Çin ölkələrinə də aid edə bilərik və statistik göstəricilər inanılmaz rəqəmlərlə ifadə olunur. Son illərdə Özbəkistan, Türkmənistan və Qazaxstanda arxeoloji qazıntıların əsas istiqamətinin arxeoturizmə yönəldilməsi diqqətdə saxlanılır. Qədim əkinçilik mədəniyyəti mərkəzləri sayılan Anay, Namazqatəpə, Altuntəpə, Sapallitəpə və s. abidələrdə aparılan bərpa-rekonstruksiya işləri arxeoturizm sahəsinin inkişaf etdirilməsinə istiqamətlənmişdir.

Azərbaycan ərazisində arxeoturizmə istiqamətləndirilə biləcək xeyli arxeoloji-tarixi və memarlıq abiələri vardır. Belə abidələrin böyük bir qismi də qərb bölgəsində, xüsusilə Qazax rayonu ərazisindədir [1, s. 140-170]. Qazax rayonunda daş dövründən başlayaraq son orta əsrlərə qədər maraqlı və yüksək əhəmiyyət dərəcəsi ilə seçilən abidələrin böyük bir qrupu Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində cəmləşmişdir.

Avey qoruğunda arxeoloji tədqiqatların yeni istiqamətləri. Avey Dövlət tarix-mədəniyyət qoruğu zəngin tarixi-memarlıq və arxeoloji abidələrin rast gəlindiyi məkanlardan biri olaraq ən qədim daş dövrünə aid olan Avey mağarasının və dağ zirvəsində yerləşən Avey məbədinin adı ilə adlandırılıb. Avey qoruğunun əsas iş prinsipi qoruğun inzibati sərhədləri çərçivəsində tarixi-arxeoloji abidələr haqqında məlumat toplamaq və bu abidələrin qorunması, toxunulmazlığı və bərpasını təmin etməkdir. Bununla yanaşı olaraq qoruq eyni zamanda paralel olaraq bölgənin etnoqrafiyası və folkloru ilə də məşğuldur. Qoruğun ərazisində olan arxeoloji və

memarlıq abidələri, daşınan və daşınmaz tarixi və mədəniyyət abidələri qoruğun əsas mülkiyyəti hesab olunur. Ərazidə onlarla paleolit, mezolit, xalkolit, tunc, erkən dəmir, antik və orta əsrlər dövrlərinə məxsus abidələr mövcuddur. Qoruqda üç filial – Əskipara filialı (sahəsi 2783 ha), Damcılı filialı (sahəsi 800 ha), Göyəzən filialı (sahəsi 30 ha) fəaliyyət göstərir. Qoruğun ərazisində indiyədək 56 tarixi abidə qeydiyyata alınmışdır ki, bunlardan 1-i dünya, 33-ü ölkə, 22-si isə yerli əhəmiyyətlidir. Bunlardan 15-i memarlıq, 36-sı arxeoloji, 5 ədədi isə dekorativ tətbiqi sənət nümunəsinə aiddir.

Avey Dövlət tarix-mədəniyyət qoruğunun yerləşdiyi ərazi zəngin təbii coğrafiyası, əsrarəngiz relyefi və təbiəti, təbii ehtiyatları ilə hələ ən qədim dövrlərdən insanların bu ərazidə məskunlaşmasına səbəb olmuşdur. Arxeoloji-tarixi abidələrlə zəngin olan ərazidə hal-hazırda arxeoturizmin inkişaf etdirilməsi üçün münasib imkanlar vardır. Şübhəsiz ki, bu abidələr ilk növbədə turistlərin diqqətini çəkəcək zəngin arxeoloji-tarixi abidələrdir [2; 3]. Qoruq ərazisində elə unikal abidələrimiz vardır ki, belə abidələrə heç bir qədim mədəniyyətə malik olan ölkələrin ərazisində də rast gəlinmir.



Şəkil 1. Avey dağında alban məbədi

Qoruqda ilk arxeoloji tədqiqatlar keçən əsrin 50-60-cı illərində mərhum arxeoloq M.M.Hüseynov tərəfindən aparılmış, bu tədqiqatlar ərazinin arxeoloji baxımdan öyrənilməsinin əsasını qoymuşdur [12; 13]. Xüsisilə son illərdə isə qoruq ərazisindəki Damcılı mağarasında yapon alimləri ilə birlikdə yerli arxeolqların apardıqları araşdırmalar ərazinin qədim mədəniyyət

mərkəzlərindən biri olmasını bir daha sübut etməklə yanaşı, burada ibtidai insanın yaşayışının izlərini, daş dövrü sakinlərinin həyat tərzini öyrənməyə imkan verən xeyli sayda maddi qalıqların aşkar edilməsinə səbəb olmuşdur. Damcılı mağarasında tədqiqatların uğurlu nəticələri olmuş, dünya mətbuatının dəfələrlə işıqlandırdığı nəşr işi olan "Damcılı mağarası" kitabının Yaponiyada təqdimatı keçirilmişdir. Damcılı mağarasındakı tədqiqatlar bir daha sübut etmişdir ki, qoruğun ərazisindəki nadir və unikal abidələrdən sayılan bu tip abidələr ərazinin qədim insan sivilizasiyasının ilk məskənlərindən olmuşdur.

Avey Dövlət tarix-mədəniyyət qoruğunun Göyəzən filialı ərazisində, eyniadlı dağın ətəklərində aparılmış arxeoloji tədqiqatlar burada erkən xristianlıq dövrünə aid olan qəbir abidələrinin tədqiqi sahəsində də mühüm uğurlara imza atmağa imkan verdi. Məlumdur ki, Qafqaz Albaniyasının Kambisena vilayətinin mərkəzi ərazilərindən sayılan müasir Qazax-Ağstafa bölgəsi xristian abidələri ilə də zəngindir. Avey alban məbədi, Əskipara alban məbədi və ərazidə onlarla alban qəbirləri, erkən xristianlıq dövrünü özündə ehtiva edən mağara komplekslər və bu qəbildən olan çoxlu abidələr Qafqaz Albaniyasının bir parçası olan bu ərazinin maddi mədəniyyətini öyrənmək baxımından özünəməxsus rola malikdir [9].



Şəkil 2. Avey məbədi qarşısındakı xristian məzarlığı (soldan qoruğun direktoru p.ü.f.d. S.B.Əliyeva və albanşünas alim, t.ü.f.d. Ü.Ş.Hacıyeva müzakirələr zamanı)

Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində arxeoloji tədqiqatların ikinci istiqaməti ərazinin tunc dövrü abidələrinin arxeoloji tədqiqidir. Bu istiqamətdə son illərdə qoruq ərazisində Qazax arxeoloji ekspedisiyasının apardığı tədqiqatlar mühüm elmi nailiyyətlərin ortaya qoyulmasına imkanlar açmışdır. Ekspedisiya 2023-cü ildən Qazax rayonunda, Avey Dövlət tarix-mədəniyyət qoruğunun ərazisində arxeoloji tədqiqat işlərini həyata keçirir. Arxeoloji ekspedisiya üç sahədə (Avey alban məbədi, Damcılı və Göyəzən kurqanları), iki elmi istiqamət (tunc və antik dövr mədəniyyətlərinin tədqiqi) üzrə tədqiqatlar aparır.

İlk olaraq Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisindəki Avey dağı zirvəsində alban məbədində tədqiqatlar aparılmışdır. Alban məbədi hesab edilən qədim məbəd Qazax rayonunun Daş Salahlı kəndinin ərazisində, Avey dağının cənub zirvəsində yerləşir (şəkil 1). 4,5×3,5 m və 3,5×2,5 m ölçülü iki otaqlı məbəd yerli Avey daşından inşa edilmişdir. Şimal hissəsinin tavanı tağvari, cənub hissəsinin tavanı isə konusvari kümbəzlə tamamlanır. Məbəd dəniz səviyyəsindən

922 metr yüksəklikdədir [4, p. 68].

Məbədin tarixi ilə bağlı müxtəlif mənbələrin məlumatları vardır. Bunları ümumiləşdirərək və aparılmış qazıntılardan əldə edilən materiallara əsasən məbədin V-VII əsrlərdə Qafqaz Albaniyası dövlətinin dövründə tikildiyi ehtimal edilir. Lakin memarlıq üslubuna görə xristianlığa qədərki Albaniya dövrünün abidələrinə daha çox bənzəyir. Roma və yunan memarlıq üslubu hiss edilir. Görkəmli tarixçi Q.Qeybullayevin fikrincə, "Avey" sözü qədim türklərdə "Ay evi" mənasını verir və məbəd yunan Ay ilahəsi Selenanın şərəfinə inşa edilmişdir. Bildiyimiz kimi, xristianlığa qədərki Albaniyada çoxallahlı dinə sitayiş edilmişdir və burada Roma və yunan allahlarına səcdə olunurdu. Digər bir versiyaya görə isə, bura ov yeri (indi də Qazax dialektində "ov" sözü "oy" kimi də ifadə olunur) olub. Lakin buranın ov yeri olması bir qədər təəccüb və şübhə doğurur. Çünki, ərazi ovalıq yox dağlıq ərazidir [4, p. 69].

Məbədin daxilində, hücrə yerlərinin birinin yuxarısında, şərq tərəfə açılmış pəncərənin yaxınında göl naxışlı bəzək elementi ilə əhatələnmiş alban xaçı təsvir edilmişdir. Bu xaç daş üzərində qabartma üsulu ilə yonulmuş, həkk edilmişdir. Xarici hissədə isə məbədin qərb tərəfində, yuxarıda eynilə daxildəki kimi xaç təsviri vardır. Hər iki xaçın üzəri zədələnmiş, hansısa küt alətlə qaşınmış, müəyyən tərəfləri qopub düşmüşdür. Avey məbədinin həyətində XIX əsrin 70-80-cı illərində qəbirlər aşkar edilmişdir. Qəbirlərin sinə daşları albanlara xas olan üslubda naxışlanmışdır. Daşlarının birinin üstündə emblem kimi albanlara məxsus lotos gülü və onun yuxarı künclərində günəş simvolu olaraq içərisi 8 hissəyə ayrılmış rozetka qazılmışdır.

Ümumilikdə, 2023-ü il qazıntıları zamanı məbədin həyətindən 34 ədəd sinə daşı aşkar edildi. Onların bəziləri isə (təxminən 3 ədədi) üst-üstə aşkarlandı. Güman ki, aralarında zaman fərqi çox olmuş və dəfnlər üst-üstə icra edilmişdir (şəkil 2). Yaxın ətrafda vaxtilə xəndək qazıntısı zamanı da belə qəbirlərin tapılması haqqında yerli əhalinin verdikləri məlumatları eyniləşdirsək görərik ki, məbədin bütün ətrafı boyunca xristian qəbirlərinin sayı çoxdur və onlar müasir yer səthindən 10-15 sm dərinlikdən başlayaraq aşkar edilirlər.

Maraqlı və məzmunlu arxeoloji tapıntılar əldə edilmişdir. 1 saylı qəbirdə insan kəlləsi yanından, çənə sümüyü ətrafından mis sikkə tapıldı. Mis sikkənin üzəri oxunarkən aydın oldu ki, bu dirhəm Elxani (Hülakü) hökmdarı Abaqa xan dövründə zərb edilmiş pul nişanıdır. Mis dirhəm hicri 663-cü ildə (miladi 1265) Təbrizdə zərb edilmiş, ölçüləri: diametri 20 mm, çəkisi isə 2,76 qramdır. "Qaan əl-adil" növünə aid mis dirhəm hesab olunur. Ehtimal ki, mis pul nişanı mərhumun ağzına qoyulmuşur. Belə bir adətin xristian dəfnlərində mövcud olması ilə bağlı məlumatlar vardır. İnsan skeletinin üzərindən mis sikkənin tapılması mərhumun dəfn olunduğu dövrü müəyyən etmək baxımından əhəmiyyətli tapıntı idi. Abaqa dövrünə aid sikkələrin bəzilərində xristian xaçı təsvir olunmuş və ərəb dilində "Ata, Oğul və Müqəddəs Ruhun adı ilə, yalnız bir Tanrı" yazısı vardır [4].

Qazıntı işləri aparılmasa da ekspedisiya Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində, qoruğa daxil olan nadir abidələrdən hesab olunan alban məbədi ətrafındakı mağaralar ilə tanış olmuş, qeydiyyat aparılmışdır (şəkil 3). Mağaralar Avey məbədinin yerləşdiyi dağ zirvəsinin bir qədər az hündürlük məsafəsini saxlayan aşağı sahəsində yerləşirlər. Giriş-çıxış imkanları bir qədər çətin olan mağaraların ağzı sərt qayalıqlarla əhatələnmişdir. Mağaralar sanki bir cərgədə, dairəvi, dövrələmə bir xətt boyunca yerləşirlər. Onların girişi bəzilərində çox səliqəli yonulmuş, bəzilərində isə sərt qaya daşlarının girintili-çıxıntılı hissələri ilə müşayiət olunurlar. Mağaraların giriş hisssələrinin hündürlüyü 1-1,5 m olmaqla ağızda divar hissənin qalınlığı təxminən 1-2 m-ə qədərdir. Mağaraların daxili divarları demək olar ki, hamısında çox qalın olan his təbəqəsi ilə örtülmüşdür. Xüsusilə mağaraların tavanında bu his qatı çox qalındır və bərkimişdir. Buna səbəb isə yuxarıdan nəmin, yağış sularının yaratdığı nəmişliyin daşlara hopması və aşağı hissədə yandırılan tonqalın his təbəqəsinin nəmlənmiş əhəngdaşına hopması nəticəsində yaranan qatdır. Mağaraların içərisi bəzən bir, bəzən isə 2-3 otaqlıdırlar [4]. Bu otaqlara giriş iç-içədir. Otaqların sahəsi 15-20, bəzən isə hətta 30-40 m^2-dək olur. Mağaraların içərisində çox yerdə rastlaşdığımız artefaktlar keramika nümunələri idi. Keramika nümunələrinin əksəriyyəti antik dövrü xarakterizə edir. Bu isə çox maraq və araşdırılması vacib olan məqamlar ortaya çıxartmış olur. Belə ki, yuxarı hissədə Alban məbədinin salındığı dövr, məbəd ətrafından tapılan antik və orta əsr

keramikası, mağaraların divarlarında rast gəldiyimiz müxtəlif yazı və işarələrin eynisinin məbəd divarlarınada da mövcud olması düşündürücü faktlar və suallar ortaya çıxarır. Ehtimal edilə bilər ki, Avey məbədində ilkin dövrlərdə ibadət edən xristianlar, albanlar öz kahinləri və müqəddəs saydıqları din adamları üçün aşağıda mağaralar salmış, onlar burada qalaraq ibadətlə məşğul olmuşlar. Təbii ki, bu araşdırılması tələb olunan məqamlardan biridir və bunun üçün də ərazidə kompleks arxeoloji tədqiqatlara ehtiyac vardır.

Ekspedisiyanın tunc dövrü mədəniyyətini öyrənməklə bağlı apardığı tədqiqatlar qoruğun Damcılı filialı ərazisindəki eyniadlı kurqanlar və Göyəzən filialı ərazisindəki kurqan qəbirləri olmuşdur [7, s. 49-50].



Şəkil 3. Avey alban məbədi ətrafındakı mağaralardan biri

Avey kurqanları ümumilikdə Avey dağının bütün yaxın ətrafı boyunca yayılmışlar. Bu kurqanlar yerli əhalinin adlandırdığı lokal yer adları ilə daha çox tanınırlar. Dəlləkli kurqanları, Yovşanlı təpə kurqanları, Daşlı çökək kurqanları, Bərkin ağzı kurqanları və s. Bu kurqanların bəzilərinə yerindəcə baxış keçirilsə də, onların yerləşmə xüsusiyyətləri və strukturu haqqında müəyyən elmi informasiya verilsə də ərazidə kompelks arxeoloji qazıntılar aparılmamışdır. İlk dəfə 1961-ci ildə Qazax arxeoloji ekspedisiyası mərhum arxeoloq C.N.Rüstəmovun rəhbərliyi altında (ekspedisiyanın tərkibidə F.M.Muradova və İ.H.Nərimanov da iştirak etmişlər) Avey ətrafında arxeoloji tədqiqatlar apararkən kurqan abidələri haqqında məlumat vermiş, Avey dağının şimal-şərq ətəyindəki Bərkin ağzı adlanan yerdə kurqanları qeydə almışdır [10, s. 25-34].

Ekspedisya eyni zamanda Daş Salahlı və Aslanbəyli kəndləri arasında tunc dövrünə aid yaşayış yeri və kurqanlar da qeydə almış, yaşayış yerində yoxlama qazıntısı aparmış və 1 kurqan abidəsi qazaraq tədqiq etmişdir. Bu barədə təqdim edilmiş elmi hesabatda və C.N.Rüstəmovun İ.H.Nərimanovla birlikdə 1965-ci ildə Azərbaycanın Maddi Mədəniyyəti toplusunun 6-cı cildində çap edilmiş "Aveydağda qədim yaşayış yeri və kurqan qəbirləri" başlıqlı məqalələrində ətraflı məlumat verilmişdir [11, s. 44-50]. 1989-1990-cı illərdə Qazax arxeoloji ekspedisiyası Daş Salahlı kəndinin qərb qurtaracağında yeni yaşayış yeri, qəbristanlıq və kurqanlar qeydə almışdır. Bu kurqanlar Daş Salahlı və Aslanbəyli kəndləri arasındakı torpaq yolun şərqində, köhnə üzümlük sahəsinin içərisində yerləşirdilər. Yerli əhalinin Yovşanlı təpə və Daşlı çökək adlandırdığı bu ərazidə ekspedisiya 4 kurqan abidəsi qazaraq tədqiq etmişlər [Rüstəmov, Muradova, 2014, s. 25]. Əldə edilən arxeoloji materialların bəziləri Azərbaycan Milli Tarix Muzeyinin arxeoloji fonduna təhvil verilmişdir. Avey Dövlət tarix-mədəniyyət qoruğu yarandıqdan sonra bir çox abidələr kimi kurqanların da qorunması nəzarətdə saxlanılmaqdadır. Lakin aradan keçən onilliklər ərzində Avey kurqanlarının qazıntısı mümkün olmamışdır. Qazax arxeoloji ekspedisiyası (Ş.N.Nəcəfovun rəhbərliyi ilə) 2012-2014-cü illərdə Avey ətrafındakı kurqanlara arxeoloji baxış keçirmiş onların sayının müəyyənləşdirilməsi istiqamətində işlər görmüşdür. 2013-2014-cü illərdə ekspedisiya Daş Salahlı (Dəlləkli) kurqanlarının qeydiyyatını aparmış, onların bəzilərinin elektron xəritəsi hazırlanmış və Qazax rayonu abidələrinin elektron xəritəsinə salınmışdır.

2024-cü ildə Qazax arxeoloji ekspedisiyasının Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində, Damcılı filialının əhatə zonasında, kurqan qəbirlərində apardığı arxeoloji tədqiqatlar bu istiqamətdə ciddi elmi araşdırma işi olmuşdur. Qazıntı üçün kurqan qəbirləri Daş Salahlı kəndinin yuxarı hissəsində, Avey dağının ətəklərində, kənddən təxminən 300-400 m aralıda, yerli əhalinin Dəlləkli adlandırdığı qəbristanlığın yaxın əhatəsində seçilmişdir [8, s. 155-156]. Bu ərazidə təxminən 40-dan çox kurqan qəbri qeydə alınmış, onlardan 4-ündə qazıntılar aparılmışdır. Kurqanlar Avey dağının ətəklərindən başlayaraq kənd evlərinin başlandığı sahəyə qədər, hazırda fəaliyyət göstərən "Mətanət" və "Arkozsement" müəssisələrinin sərhədlərinə qədər uzanırlar.



Şəkil 4. 1 saylı Göyəzən kurqanı

Avey Dövlət tarix-mədəniyyət qoruğunun Göyəzən filialının yerləşiyi Alpout kəndi tarixi-arxeoloji abidələrlə zəngin məkandır. Təbiət abidəsi hesab edilən Göyəzən dağı bu kəndin ərazisində yerləşir. Göyəzən həm də antik və orta əsrlərdə insan yaşayışının izlərini özünə qoruyub saxlayan unikal tarixi abidələrdən sayılır. Alpout kəndi ərazisində, Göyəzən dağının yaxın ətrafında kurqan qəbirlər qeydə alınmışdır (şəkil 4). Bu kurqanların bir qismi də Göyəzən dağından şərqdə, Armudlu dağının ətəyində və Murovul dağına istiqamətlənən geniş maili düzən ərazidə yerləşirlər [7]. Arxeoloji ekspedisiya kurqanların yaxın çevrəsində, onlardan şərqdə yerləşən Murovul alçaq dağının ətəklərinə və zirvəsinə baxış keçirmişdir. Burada tunc və erkən dəmir dövrlərinin zəngin arxeoloji materialları aşkar edilmişdir. Murovul yaşayış yeri hündür dağ zirvəsində yerləşməklə bölgənin unikal yaşayış məkanlarından hesab edilməlidir. Yüksək dağ zirvəsində adətən belə yaşayış yerləri müdafiə istehkamlarına malik olur və bunlar müdafiə hasarlı yaşayış yerləri adlandırlır. Dağın zirvəsində relyef-təbiət xüsusiyyətləri nəzərə alınmaqla əlverişli yaşam tərzinin seçilməsi hiss olunur. Təbii qayalar, bu qayaların ətrafında oyulmuş sığınacaq yerləri, qalacaqlar, hətta oturacaq yerləri müşahidə olunmaqdadır. Yaşayış yeri təxminən 200 m hündürlükdə yerləşir. Heç şübhə yoxdur ki, məhz Murovul yaşayış yerinin sakinləri yaxınlıqda öz dəfnlərini həyata keçirmiş və hündür dağ zirvəsindən aşağı ətrafa baxanda bu dəfn yerləri - əsasən kurqanlar və tək-tək yerləşən qəbirlər aydın görünür. Tədqiq etdiyimiz və Göyəzən (Murovul) kurqanları adlandırdığımız bu kurqanların məhz Murovul yaşayış yerinə aidliyi şübhə doğurmur. Bu baxımdan ərazidə kompleks arxeoloji qazıntıların aparılması elmə faydalı olmaqla yanaşı, həm yaşayış yerinin, həm də bu yaşayış yerinin qədim sakinlərinin dəfn abidələrini öyrənmək baxımından əhəmiyyətli olacaqdır. 2025-ci ildə Murovulda arxeoloji tədqiqatlar aparılmış, ərazidə tunc dövrünün sonu və erkən dəmir dövründə müdafiə hasarlı yaşayış yerinin olması, sahənin divarlarla möhkəmləndirilməsi və zəngin maddi mədəniyyət bazası müəyyən edilmişdir.



Şəkil 5. Xalxalda su anbarının qalıqları (ilk orta əsrlər)

Avey qoruğunda arxeoloji abidələrin arxeoturizm təyinatı. Qoruq ərazisində istər arxeoloji qazıntısı aparılan, istərsə də tədqiqata hələlik cəlb edilməyən bütün abidələrin arxeoturizm imkanları genişdir. Damcılı və Daş Salahlı mağaralarının, Avey alban məbədinin, mağaralar kompleksinin, Xalxal şəhər yeri hesab edilən antik və ilk orta əsr şəhər yerinin (şəkil 5), Murovul yaşayış yerinin, Göyəzən təbiət abidəsi və onun ətrafındakı qala bürclərinin, kurqan abidələrinin hər biri arxeoturizm üçün potensial abidələrdir. 2023-2025-ci il tədqiqatları zamanı

arxeoloji qazıntıların gedişində buraya canlı seyrə gələn yerli və əcnəbi turistlərin simasında ərazinin real arxeoturizm imkanları aydın görünür. Turistlərin marşrutlarına salınan ərazinin tarixi-arxeoloji abidələrinin onlarda yaratdığı maraq və həvəs bir daha onu sübut edir ki, qoruq ərazisində arxeoparkların yaradılması və bu istiqamətdə aparılacaq layihələndirmələr uğurlu nəticələr verə bilər. Təkcə qoruğun maddi-texniki bazasını gücləndirməyə deyil, eyni zamanda bölgənin turizm rayonlarından birinə çevrilməsinə dəstək ola biləcək arxeoparkların yaradılması müasir dövrün tələblərindən biri kimi qiymətləndirilməlidir. Məqsəd, Avey qoruğunda turizmin bir növü olan arxeoturizmi inkişaf etdirmək və bunun ilk nəzəri-praktiki bazasını yaratmaqdır. Çox zəngin arxeoloji-tarixi abidələrə malik olan qoruğun həmin abidələrini turizmin gəlirli bir sahəsinə çevirmək əsas məqsəddir. Təbii ki, bunun davamında isə digər mühüm məqsədlər – abidələrimizin təbliği, xarici iddialara qarşı əsaslı cavab, abidələrimizi dağılmaq təhlükəsindən qurtarmaq, arxeoloji tədqiqatlar və s. dayanır. Qoruq ərazisindəki abidələrimizin turizm obyektlərinə çevrilməsi; - bəzi arxeoloji abidələrimizin turist marşrutlarına salınması; - qoruğun arxeoturizm potensialını nümayiş etdirən elektron xəritənin yaradılması; - reklam buklet-banerlərin, internet-reklam guşələrinin yaradılması; - arxeoloji qazıntı aparılan sahələrin real gəlirli bir sahəyə çevrilməsi; - qoruğun bəzi tarixi-arxeoloji abidələrinə əsassız iddialara tutarlı cavab verilməsi və bu məqama turistlərin diqqətinin yönəldilməsi və s. arxeoturizmlə bağlı layihələrin əsas məqsədini təşkil etməlidir. Arxeoparkların yaradılması əsasında respublikamızın gündən-günə inkişaf etməkdə olan turizm potensialına arxeologiyanın töhfələrini də əlavə etmək və bunun kökündə xarici ölkə təcrübəsinə əsaslanmaq dayanmalıdır. Arxeoturizmin milyonlarla gəlir gətirdiyi bir zamanda bu sahənin Azərbaycanda, eləcə də Avey Dövlət tarix-mədəniyyət qoruğunda inkişaf etdirilməsi və formalaşdırılması fikrimizcə zamanın tələbidir və bu sahəni mütləq inkişaf etdirmək lazımdır.

Arxeoturizmin nəzəri əsaslarını hazırlayarkən bu sahədə aparılacaq tədqiqatlar elmi baxımdan düzgün, əhatəli və məzmunlu olmalı, tarixi təhlil metodlarına əsasən aparılmalıdır. İşinin elmi-metodoloji əsasını əldə olunmuş arxeoloji, tarixi, memarlıq, antropoloji və etnososioloji materialların təhlilinə elmi yanaşmaq prinsipi təşkil etməlidir [5; 6]. Son illərin arxeoloji qazıntılarının nəticələrinə və bu nəticələri özündə əks etdirən hesabatlara, ədəbiyyatlara istinad edilməli, məsələyə sırf müasir tələblər baxımından yanaşılmalı, xarici ölkələrin arxeoturizm sahəsində irəliləyişlərinin metodologiyasına nəzər yetirilməlidir. Avey qoruğunda arxeoturizmlə bağlı layihələrin irəli sürülməsində əsas məqsəd rayonun çox zəngin, maraqlı və unikal arxeoloji-tarixi abidələrinin xarici və yerli turistlərin diqqətinə çatdırılması, onların reklam edilməsi, turistlərə daha rahat, uyğun marşruta malik abidələrin göstərilməsi, bu abidələrin üzərində azərbaycan və ingilis dillərində pasport lövhələrin vurulmasının təşkil edilməsi, internet saytının yaradılması və qoruğun arxeoloji abidələrinin elektron xəritəsinin yaradılması və s.-dən ibarətdir.

Respublikamızın qərb qapısı sayılan Qazax rayonu turistlərin daha sıx rast gəlindiyi ərazilərdəndir. Bu bölgədə salınan onlarla yeni istirahət zonalarında yüzlərlə xarici və yerli turistlər dincəlirlər. Bu potensialdan faydalanmaq yerinə düşərdi. İndiki durumda məhz erməni saxtakarlığına və fitnələrinə arxeoloji-tarixi dəlillərlə cavab verdiyimiz bir vaxtda, erməni alimlərinin abidələrimizə iddia etdiyi bir zamanda, alban abidələrini riyakarcasına YUNESKO-da öz adlarına çıxardıqları bir zamanda, nəinki öz ərazimizdə, hətta indiki Ermənistan adlanan respublikanın ərazisində qədim abidələrimizin, yurd yerlərimizin tarixi həqiqətə söykənərək əslində bizə maddi-mədəni abidələri ilə dünyada tanınan Qafqazın ən qədim xalqına məxsus olmasını rəsmi dövlət səviyyəsində elan etdiyimiz bir zamanda bu tip layihələrin həyata keçirilməsi gündəmdə olmalıdır.

Avey Dövlət tarix-mədəniyyət qoruğunda planlaşdırılan arxeoturizm layihələrinin gerçəkləşməsi ilk növbədə iqtisadiyyatımıza xeyli gəlir gətirəcək və arxeologiyanın iqtisadiyyata tətbiqi imkanlarını artıracaqdır. Digər tərəfdən turist marağına səbəb olan arxeoloji abidələrimiz dünyada tanınacaq və bu da Azərbaycan xalqının qədim maddi mədəniyyətə malik bir xalq olmasını təsdiqləmiş olacaq. Son olaraq isə arxeoloji-tarixi və memarlıq abidələrimizin bir çoxu dağılmaq təhlükəsindən qurtaracaq və Avey qoruğu turizm əhəmiyyətli status alacaq.

Avey Dövlət tarix-mədəniyyət qoruğunda arxeoturizmin inkişaf etdirilməsi üçün qeyd etdiyimiz bir çox problemli məsələlər vardır ki, bunlar yalnız dövlət dəstəyi və ayrı-ayrı yerli sahibkarların qayğısı ilə həyata keçirilə bilər. Təbii ki, bu sahənin inkişaf etdirilməsi uzunmüddətli bir proqram olsa da onun nəticələri çox böyük elmi və maddi gəlirləri ortaya qoya bilər. İrəli sürdüyümüz bu təkliflər əlbəttə ki, ilkin olaraq arxeoturizmin Avey qoruğunda yaradılması və inkişaf etdirilməsinə xidmət göstərəcəkdir. Elmi baxımdan çox böyük maraq obyekti, iqtisadi baxımdan isə çox gəlirli bir sahə kimi arxeoturizmin inkişafı son nəticədə Avey qoruğunun və bölgənin özünün iqtisadi və elmi gəlirləri üçün hesablanmış bir sahədir.

Gözlənilən nəticələr. Avey Dövlət tarix-mədəniyyət qoruğunda arxeoturizm kompleksinin və arxeoparkların yaradılması ilk öncə arxeoloji abidələrin tanıdılmasına xidmət edəcəkdir. Qoruğun tarixi-arxeoloji abidələrini həm yerli vətəndaşlar, həm də ölkəmizdə qonaq olan turistlər tanıyıb, maraq göstərəcəklər. Bu abidələrin tanınması əhalini xeyli maarifləndirəcək, arxeoloji-tarixi abidələrimizin dağıdılmasının qarşısı alınacaqdır. Ən əsası arxeoturizmin inkişafı bütövlükdə qoruğun və ümumilikdə götürüldükdə isə bölgənin turizm imkanlarını artıracaq və ya turizm potensialını yüksəldəcəkdir. Avey qoruğunun yerləşdiyi məkanın xüsusiyyətlərini nəzərə alsaq onun turizm marşurutlarına salınması uyğundur. Bölgədə istirahət edən xarici turistləri bu abidələrlə tanış etməklə onların maraqları xeyli artacaq və açıq dağ arxeoturizminin inkişafına təkan verəcəkdir.

Qoruqda həyata keçiriləcək arxeoturizmlə bağlı layihələrin əsasını arxeoloji və tarixi tədqiqat, eyni zamanda arxeoloji tədqiqatların iqtisadiyyatımıza tətbiqi forması təşkil etməlidir. Tədqiqatın nəticələrinin istifadəsi ilə bağlı əsas tərəf isə budur: layihələrin əsas mahiyyətini milli abidələrimizin təbliği, mühafizəsi, qorunması, məkrli düşmənlərimizin abidələrimizə əsassız iddialarına cavab təşkil etdiyindən buradan ən çox xalqımız faydalanacaqdır. Arxeoturizmlə bağlı layihələrin nəticələrinin yalnız bir tətbiq sahəsi vardır: turizm. Turizmin bu növünün Avey Dövlət tarix-mədəniyyət qoruğunda yaradılması və gələcək üçün inkişaf strategiyasının hazırlanması irəli sürüləcək layihələrin əsas məram və məqsədi olmalıdır. Arxeoturizmin tətbiqi qoruq üçün böyük iqtisadi gəlir, elmimiz üçün isə inkişaf deməkdir.

Ədəbiyyat

1. Qazıyev, S.M. Qazax və Ağstafa rayonlarındakı arxeoloji və tarixi abidələr haqqında (1957-ci il) // – Bakı: Azərbaycanın Maddi Mədəniyyəti, – 1962. – cild IV, – s. 140-170.
2. Müseyibli, N.Ə., Nəcəfov, Ş.N. Arxeoloji qazıntıların böyük əhəmiyyəti var // Azərbaycan. – 2011, 6, 8 fevral. – s. 4, 6.
3. Müseyibli, N.Ə., Nəcəfov, Ş.N. Azərbaycanda arxeoturizm perspektivləri // Elm. – 2011, 31 mart. – s. 18.
4. Najafov, Sh.N., Aliyeva, S.B., Mursaguliyev, M.H. Archaeologial research in and around the Avey Albanian temple in 2023 // Ethnocultural heritage of Caucasian Albania (collection of articles). Proceedings of the 11th international conference on Caucasian Albania: ethnoarchaeology, written sources and historical monuments. – №5. Baku, Azerbaijan, 2024, – p. 68-76
5. Nəcəfov, Ş.N., Ağalarzadə, A.M. Arxeoloji qazıntıların turizm əhəmiyyəti (Azərbaycanda arxeoturizmin inkişaf istiqamətləri) // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, – 2011. №1, – s. 82-90.
6. Nəcəfov, Ş.N. Arxeoturizm – neft qədər əhəmiyyətli gəlir mənbəyi // Salam-Press. – 2011, 09-15 aprel. – s. 12.
7. Nəcəfov, Ş.N., Əliyeva, S.B., Əsədov, V.A., Mursaquliyev, M.H., Hacıyeva, Ü.Ş. Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində 2024-cü ildə aparılmış arxeoloji tədqiqatlar // Azərbaycanda arxeoloji və antropoloji tədqiqatlar: nəticələr və perspektivlər. AMEA-nın 80 illiyinə həsr olunmuş elmi sessiyanın tezisləri. Bakı, Azərbaycan, 2025, – s. 49-51.
8. Nəcəfov, Ş.N., Mursaquliyev, M.H. Azərbaycanın qərb bölgəsində tunc dövrünə aid kurqan abidələrində son tədqiqatların yekunları // AMEA Gəncə Bölməsinin təşkilatçılığı ilə “AMEA - 80” mövzusunda respublika elmi-nəzəri konfransın materialları (İctimai və

humanitar elmlər bölməsi). Gəncə, Azərbaycan, 2025, Elm, – s. 152-156.
9. Osmanov, F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV - b.e. III əsrləri). – Bakı: Elm, – 1982. – 157 s.
10. Rüstəmov, C.N., Muradova, F.M. Daş Salahlı kurqanları // – Bakı: Azərbaycan arxeologiyası, – 2014. – cild 17, – №1, – s. 25-34.
11. Rüstəmov, C.N., Nərimanov, İ.H. Avey dağında qədim yaşayış yeri və kurqan qəbirləri // – Bakı: Azərbaycanın Maddi Mədəniyyəti, – 1965. – cild VI, – s. 44-50.
12. Бунятов, Т.А., Гусейнов, М.М. Результаты археологических поездок в Акстафинский и Казахский районы в 1955 г. // – Баку: Труды музея истории Азербайджана, – 1957. – том II, – с. 68-81.
13. Петросов, М.З. Об изучении исторических памятников Казахского района Азербайджанской ССР // – Баку: Изв. АН Азерб. ССР, – 1952. – том VIII, – с. 43-50.

Məqalənin redaksiyaya daxilolma tarixi: 24.09.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26.09.2025
Məqalənin çapa qəbul olunma tarixi: 02.10.2025